# Kitabınızla tanış olun

**Bölmənin ilk səhifəsi**
Elm tarixindən, təbiətdən və ya texnologiya sahəsindən maraqlı məlumatlar təqdim olunur. Səhifədəki suallar əvvəlki bilikləri yada salmağa və onları bölmənin mövzuları ilə əlaqələndirməyə kömək edir. Bu hissədəki material bölmədə öyrədilən mövzular haqqında ilkin təsəvvür formalaşdırır.

**Bölmədə nələri öyrənəcəksiniz**
Bölmədəki mövzular əsasında qazanılan bilik və bacarıqlar sadalanır.







**Maraqoyatma**
Bu hissədə tanış situasiya və ona aid suallar təqdim olunur. Dərsin fəaliyyət və izah mərhələlərinə hazırlıq məqsədi daşıyır. Situasiya təhlil olunur, suallara cavab verməklə mövzuya dair ilkin biliklər yada salınır.

**Fəaliyyət**
Qoyulmuş suala cavab tapmaq üçün yerinə yetirilən praktik tapşırıqdır. Bu fəaliyyət nəticəsində diqqət yeni mövzunun əsas anlayışlarına yönəldilir və proses bacarıqları inkişaf etdirilir.

**İzahetmə**
Fəaliyyətdən sonra yeni mövzu izah edilir.

**Düşün – müzakirə et – paylaş**
Təqdim olunan sual düşünmək və cavabları sinif yoldaşları ilə müzakirə etmək üçün nəzərdə tutulur. Belə müzakirələr zamanı fərziyyələri əsaslandırmaq müstəqil düşünmə bacarığını inkişaf etdirir. Fikirləri sinif yoldaşları ilə bölüşmək isə kommunikasiya bacarığının təkmilləşməsinə kömək edir.

